# İbrahim Yusifoğlunun yaradıcılıq dünyası

**Şərur rayonunun dağlar qoynunda yerləşən Axura kəndində dünyaya göz açan İbrahim Yusifoğli "şair ikən müəllim, müəllim ikən də şairdir." Şairlik və müəllimlik... Hər ikisi də taleyüklü və məsuliyyətlidir.**

Yarım əsrlik zaman dilimində həm təhsildə, həm də poeziyada "qələmlə külüng çalan" şair İbrahim Yusifoğlunun bu il 70 yaşı tamam olur.

Publisistik məqalələri də daxil olmaqla, 33 kitabın, şeirlər, poemalar, mənzum dramlar, nəsr və publisist əsərlərin müəllifi olan İbrahim Yusifoğlu, "Qızıl Qələm" media mükafatı laureatı, Prezident mükafatçısı, Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisidir. Hal-hazırda AMEA-nın N. Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşıdır.

Torpaqlarımız uğrunda canlarından keçən şəhidlərimiz haqqında ürəkağrısı ilə iki kitab yazdı İbrahim Yusifoğlu. Bunlardan biri, "Mənim inamımı güllələdilər" poetik nalədirsə, digəri, "Ölümü Tanrıdan gələnlər" publisistik ağıdır, ağrıdır, yanğıdır.

Şairin yaradıcılığında, poeziyasında və publisistikasında itirilmiş müstəqilliyimizin qazanılması, Qara Yanvar gecəsində Bakı şəhəri dirəkləri laxlamaqda olan imperiyanın qoşunları tərəfindən amansızcasına güllələbaran edilməsi, əliyalın insanların vəhşiliklə öldürülməsi, azğınlaşmış hərbçilərin təcili yardım maşınlarını və mülki vətəndaşların avtomobillərini tankların altında əzməsi, yaşayış binalarına müxtəlif çaplı silahlardan atəş açmaları, bir sözlə ölümsüzlüyə qovuşmaq üçün ölümə gedilən yol ürək ağrısı ilə izlənilir.

Ümummilli Lider Heydər Əliyev 1990-cı illərdə baş verən o ağır günlərdə "unudulmuş tənha adaya bənzədilən Naxçıvana gəlişi, xalqla birlikdəliyi, biradakı fəaliyyəti şairin yaradıcılığında, "O, Günəş ömrüdür, sönməyəcəkdir" poemasında xronoloji ardıcıllıqla əks olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikirlərinin poemada



epiqraf kimi təqdim olunması maraqlı, maraqlı olduğu qədər də diqqətədəyərdir. Şairin təqdim etdiyi digər bir epiqrafda Azərbaycan Ordusunun qələbə qazanması, Azərbaycan torpaqlarının azad olunması poetik dillə təqdim edilir. İlham Əliyevin fikirlərini əks etdirən bu epiqrafda həm də ata vəsiyyətini yerinə yetirmiş insanın qüruru öz əksini tapır.

Bütövlükdə, Ulu Öndərin həyat və siyasi fəaliyyəti əks olunan "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında "Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərketmənin Heydər Əliyev siyasətinin, milli dövlətçilik təliminin ana xəttini təşkil etməsi, əsas prinsiplərindən olması" əks olunur, sələflik, xələflik, məsələlərinə toxunulur, Heydər Əliyevin siyasi yolunun oğlu İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi vurğulanır.

İbrahim Yusifoğlunun "O günü göylərdən kədər yağırdı" kitabındakı "Göylərdən ələnən göz yaşlarıydı" povesti də ermənilər tərəfindən tarixlər boyu xalqımızın başına gətirilən bəlaların, Şərurda baş verən hadisələrin yaddaşına həkk olunanlardı. Yazıçı bütün bunları povestin baş qəhrəmanı İlqar müəllimin dili ilə və tarixi faktlarla oxucuya çatdırır: " Naxçıvan torpağı azad nəfəs alırdı. Naxçıvan xalqında inam, qətiyyət, qələbə hissi baş qaldırmışdı. Naxçıvanın başı üzərində Günəş doğmuşdu. Bu Günəş qara buludları dağıdır, havaya bir aydınlıq, istilik gətirirdi. Bu, Heydər Əliyev Günəşi idi. O böyük insan - Heydər Əliyev onu canı qədər sevən, ona inanan xalqının qarşısında, "Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam. Azərbaycan dövlətinin müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır", - deyirdi.

Yaradıcılığında azadlığa gedən yolun ağrısından, acısından doğulan azadlığı, bu azadlığı qazanan Vətənin oğul və qızlarının ölməzliyini qələmə alan şair-publisist İbrahim Yusifoğlu o illərin tarixi faciələrini bədii-publisistik dillə oxuculara çatdırmış, bu zaman tarixi xronologiyaya sadiqlik göstərmiş, Qarabağ 44 günlük Vətən müharibəsinin zəfərlə taclanması şairin misralarında nəğməyə dönmüşdür.

Bu il AMEA-nın Ədəbiyyat İnstitutunun əməkdaşı, AYB üzvü, "Qızıl qələm" media mükafatı laureatı, Prezident təqaidçüsü, Azərbaycan Respublikasının Qabaqcıl Təhsil işçisi İbrahim Yusifoğlunun 70 yaşı tamam olur. Bu münasibətlə "Ömür dastanının boyları" adlı toplu işıq üzü görmüşdür. Topluda İbrahim Yusifoğlunun nəzm, nəsr və publisistik nümunələri, uşaqlar üçün yazılmış mənzum nağıl və pyesləri haqqında təhlillər aparılmış, ona həsr olunmuş poetik nümunələr yer almışdır. Toplu şair-publisist İbrahim Yusifoğlunun bədii yaradıcılığı ilə oxucuların elmi müstəvidə tanış olması üçün imkan yaradacaqdır.

70 illik yubileyi münasibəti ilə İbrahim Yusifoğlunu təbrik edirik. 100 yaşayın!!!

**Lütviyyə ƏSGƏRZADƏ**
**filologiya elmləri doktoru**